# Daşkənddə “Heydər Əliyevin qələbəsi” kitabının təqdimatı keçirilib

**Azərbaycanın Özbəkistandakı səfirliyinin təşəbbüsü ilə ölkənin tanınmış yazıçısı və publisisti İsmat Kuçiyevin rus dilində çap olunan “Heydər Əliyevin qələbəsi” kitabının Daşkənddə təqdimat mərasimi keçirilib.**

Tədbir iştirakçıları öncə ümummilli lider Heydər Əliyevin Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin (AMM) qarşısındakı abidəsi önünə tər gül-çiçək dəstələri qoyublar.

Özbəkistan Yazıçılar İttifaqında davam edən tədbirdə ölkəmizin Özbəkistandakı səfiri Hüseyn Quliyev, səfirliyin əməkdaşları, ölkənin elm, mədəniyyət və incəsənət xadimləri, şair və yazıçılar, jurnalistlər, tələbələr iştirak ediblər.

Hüseyn Quliyev Heydər Əliyevin Azərbaycan xalqı qarşısında xidmətlərindən danışıb və onun dövlətçiliyimizin çətin məqamlarında xalqın tələbi ilə hakimiyyətə gələrək müstəqilliyimizi xilas etdiyini bildirib. Səfir Azərbaycan xalqının öz böyük oğlunun xatirəsini daim əziz tutduğunu və ulu öndərin siyasətinin bu gün də uğurla davam etdiyini vurğulayıb.

Alim və tərcüməçi Babaxan Məhəmməd Şərif Heydər Əliyevin hələ SSRİ



dövründə Azərbaycana rəhbərlik etdiyi zamanda ölkə iqtisadiyyatına, milli və mənəvi dəyərlərə, adət-ənənələrə verdiyi önəmdən söz açıb, müasir Azərbaycanın indiki vəziyyətə gəlib çatmasında böyük rolunun olduğunu deyib.

Tədbir iştirakçıları Özbəkistan Yazıçılar İttifaqı binasının foyesində Heydər Əliyevə həsr olunan kitablardan və AMM-nin nəşrlərindən ibarət sərgi ilə tanış olublar. Sonra Azərbaycan-Özbəkistan dostluğuna həsr olunmuş qısametrajlı videçarx nümayiş etdirilib.

“Özbəkistan-Azərbaycan” Dostluq Cəmiyyətinin icraçı direktoru, professor Erkin Nuriddinovun moderatorluğu ilə davam edən tədbirdə çıxış edən Özbəkistan Yazıçılar İttifaqının sədri, Xalq şairi Siracəddin Səyyid Heydər Əliyevin Azərbaycanın müstəqilliyinin bərpasında, gücləndirilməsində və dövlətçiliyin qorunub saxlanmasındakı rolunu, təzyiqlərə baxmayaraq milli ruhun, milli şüurun və özünüdərkin dirçəldilməsində, müstəqil Azərbaycanın beynəlxalq aləmdə layiqli yerini tutması istiqamətində müstəsna xidmətlərini diqqətə çatdırıb. O, ulu öndərin ədəbiyyata, sənətə böyük qiymət verdiyini qeyd edərək daim ədəbiyyat adamlarına qayğı göstərdiyini vurğulayıb.

“Özbəkistan-Azərbaycan” Dostluq Cəmiyyətinin üzvü İsrail Şamsimuxamedov, jurnalist Boris Babayev, Özbəkistan Yazıçılar İttifaqının üzvü Sabir




Kurbanov və başqaları Heydər Əliyevi dünya şöhrətli siyasi xadim kimi xarakterizə ediblər.

Kitabın müəllifi İsmat Kuçiyev Heydər Əliyevin müasir Azərbaycanın qurucusu olduğunu vurğulayaraq, onun gördüyü əvəzolunmaz işlərdən danışıb. O, 1990-cı illərdə Azərbaycanın keçdiyi çətin zamanlardan söhbət açaraq, məhz Heydər Əliyevin sayəsində ölkədə sabitlik və inkişafın əldə olunduğunu bildirib.

***Qulu KƏNGƏRLİ***

**Daşkənd**